AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İQTİSADİYYAT İNSTİTUTU

Əlyazması hüququnda

**ASİF HƏBİB OĞLU HÜSEYNOV**

# AZƏRBAYCANDA İNVESTİSİYA-TİKİNTİ LAYİHƏLƏRİNİN İDARƏ EDİLMƏSİNİN İQTİSADİ MEXANİZMİNİN FORMALAŞMASI

İxtisas: 5312. 01- Sahə iqtisadiyyatı

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işinin

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi Azərbaycan Texniki Universitetində yerinə yetirilmişdir

Elmi rəhbər: İqtisad elmləri doktoru, professor Ş.Ə.Səmədzadə

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor M.M.Fərzəliyev
iqtisad üzrə fəlsəfə doktoru, dosent Ə.M.Əliyev

Aparıcı təşkilat: Azərbaycan Memarlıq və İnşaat Universitetinin «İnşaatın iqtisadiyyatı» kafedrası

Müdafiə «_18__» __10___ 2013-cü il saat ___ - da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən FD.01.181. Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: Bakı şəhəri, H.Cavid prospekti 31, II mərtəbə, AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___ » _______________ 2013-cü ildə göndərilmişdir

FD.01.181. Dissertasiya
Şurasının Elmi katibi,
iqtisad üzrə fəlsəfə doktoru, dos. G.S.Hacıyeva

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Ölkəmizin bazar münasibətləri şəraitində əsas istehsal fondlarının genişləndirilməsi və yeniləşdirilməsinə, sosial-iqtisadi problemlərin həlli üçün müxtəlif layihələrin və tədbirlərin real investisiyalaşdırılmasına böyük ehtiyac duyulmaqdadır. Bunların həyata keçirilməsində öncə qəbul edilən qərarların doğruluğu düzgün informasiya ilə yanaşı seçilmiş meyarların, göstəricilərin, təhlil zamanı istifadə edilən metodların tamlığından və dəqiqliyindən çox asılıdır.

İqtisadi inkişafın bütün əsas məsələləri sahibkarlıq fəaliyyətinin yeni obyektlərinin yaradılmasından müəssisələrin texniki yenidən silahlandırılmasına, təzələnməsinə qədər investisiyanın köməkliyi ilə həll edilir. İnvestisiyalaşdırmaya həmişə bazarda tikinti şirkətlərinin mövqeyinin möhkəmləndirilməsinin mürəkkəb problemlərinin və iqtisadi böhranın aradan qaldırılmasının həlli ilə əlaqədar baxılır.

Bütün dövrlərdə investorun qarşısında investisiyalaşdırma haqqında qərarların qəbul edilməsi mürəkkəb bir məsələ kimi durur. Mürəkkəblik ondan ibarətdir ki, belə məsələlər həmişə çoxlu miqdardadır, resurslar isə məhduddur.

İnvestisiyanın tərkib hissəsi olan resursların məhdudluğu şəraitində sahibkarlıq fəaliyyətinin əsas məqsədinə nail olmaq üçün mənfəət əldə edilməlidir, onun bölüşdürülməsi isə yaxşı mənimsənilməlidir.

Sahibkarlıq fəaliyyəti obyektinin investisiyalaşdırılması haqqında başa düşülmüş qərar investisiya-tikinti layihəsinin dəqiq işlənilməsinə əsasən qəbul edilə bilər. İnvestisiya və tikinti fəaliyyətinin investisiya-tikinti layihələri çərçivəsində bir sistem kimi inteqrasiya edilməsi bir sıra üstünlüklərin əldə edilməsinə imkan verə bilər.

İnvestisiya-tikinti layihəsinin köməkliyi ilə sahibkarlıq fəaliyyəti obyektinin yaradılmasının texniki imkanı və iqtisadi məqsədyönlüyünün aşkar edilməsi və əsaslandırılması üzrə mühüm məsələ həll edilir.

İnvestisiyanın səmərəliliyi və idarə edilməsi mexanizminin əsaslandırılmasının mahiyyəti ondan ibarətdir ki, nəzərdə tutulan investisiya-tikinti layihəsi investorun məqsədinə və iqtisadi marağına və eləcə də bu sferada idarə qərarlarının qəbul edilməsinin texniki-iqtisadi əsaslanıdırılmasına uyğunlaşdırılmalıdır.

İnvestisiya-tikinti layihələri özündə daşınmaz əmlak obyektləri üçün investisiya qoyuluşlarının yerinə yetirilməsi və nəzərdə tutulmuş maliyyə-kredit, istehsal və sosial nəticələrin təmin edilməsi üzrə niyyət və praktiki fəaliyyət toplusunu birləşdirir. Odur ki, bu layihələrinin idarə edilməsinin iqtisadi mexanizminin formalaşmasında elə metodoloji və metodiki tövsiyələr təklif edilməlidir ki, onlar dünya birliyinin tələblərinə uyğun gəlsin və Azərbaycanın bazar təsərrüfatının vəziyyətinin spesifikasını əks etdirsin. Bütün bunlar investisiya-tikinti layihəsinin idarə edilməsinin elmi prinsiplərində göstərilməlidir.

Dissertasiya işində investisiya-tikinti layihəsinin iqtisadi mexanizminin əsaslandırılmasının məntiqinə, hesablamalarda təsərrüfat mexanizminin tələblərinin əks edilməsinə və s. diqqət yetirilir.

İnvestisiya-tikinti layihəsi mexanizminin formalaşması üsullarının mahiyyəti qoyulan problemlərin texniki maliyyələşdirmə sxemindən, investorların məqsəd və maraqlarına qədər uyğunlaşdırmanın həyata keçirilməsindən ibarətdir.

Bununla əlaqədar olaraq investisiya-tikinti layihəsinin həm daxili və həm də xarici mühitinə və həyat tsiklinin bütün mərhələlərində onun reallaşdırılmasına təsir edən əhəmiyyətli amillərin tam seçilməsinə baxılır.

**Problemin öyrənilmə səviyyəsi.** İnvestisiya layihəsinin ümum metodoloji problemlərinin işlənilməsinə xarici ölkə alimlərindən V.V.Buziryevin, V.V.Şeremetin, V.N.Deqtiyarenkonun, Q.Birmanın, D.Fridmanın, S.Şmidtin, V.V.Kosovanın, İ.V.Lipsinin, V.Z.Çernyakin, İ.İ.Şapironun, M.N.Rimerin və s. əsərlərində daha geniş baxılmışdır.

İnvestisiya-tikinti layihələrinin idarə edilməsi məsələləri və onun səmərəliliyinin yüksəldilməsi yolları müxtəlif vaxtlarda respublikamızda V.M.Şirəliyevin, Q.R.Qeybullayevin, İ.Ə.Mehdiyevin, M.A.Məmmədovun, M.İ.Mehdiyevin, T.H.Hüseynovun, Ş.Ə.Səmədzadənin və s. işlərində əks edilmişdir.

Lakin dissertasiya mövzusu ilə əlaqədar mühüm elmi və praktiki əhəmiyyəti olan çoxlu məsələlərin həlli kifayət qədər işlənilməmişdir. Ölkəmizin iqtisadi ədəbiyyatının təhlili göstərir ki, investisiya-tikinti layihələrinin nəzəri və metodoloji əsasları, normativ-metodiki təminatı tam işlənilməmiş; investisiya resurslarının formalaşması mənbələrinin optimallaşdırılması kifayət qədər göstərilməmiş; layihələrin elementlərinin və səmərəliliyinin proqnozlaşdırılması məsələlərinə və s. ətraflı baxılmamışdır.

Bütün bunlar onu deməyə əsas verir ki, dissertasiya işinin mövzusu həm nəzəri, həm də praktiki nöqteyi-nəzərdən aktualdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Azərbaycanda yeni mərhələdə investisiya-tikinti layihələrinin idarə edilməsinin iqtisadi mexanizminin formalaşması istiqamətində konkret təkliflər və tövsiyələr işləyib hazırlamaqdır. İşdə qoyulan məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- investisiya-tikinti layihələrinin idarə edilməsinin səmərəliliyinin müəyyən edilməsinin nəzəri aspektlərinin əsaslandırılmaq;
- investisiya-tikinti layihələrinin idarə edilməsinin metodoloji və normativ-hüquqi əsaslandırmaq;
- investisiya-tikinti layihələrinin idarə edilməsi və planlaşdırılmasının iqtisadi mexanizmini təhlil etmək;
- investisiya-tikinti layihələrinin kompleks təhlilinin konseptual modelinin formalaşması mexanizminin araşdırmaq;
- investisiya resurslarının formalaşması mənbələrinin optimallaşdırılmasının təhlilini verimək;
- investisiya-tikinti layihəsinin idarə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi üçün informasiya təminatı sisteminin araşdırmaq;
- bu layihələrin elementlərinin və səmərəliliyinin proqnozlaşdırılmasına baxılması;
- investisiya-tikinti şirkətlərinin fəaliyyətində risklərin idarə edilməsinin iqtisadi mexanizmini vermək.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarını** – ölkə və xarici alimlərin tədqiqat işləri, qiymətləndirmənin beynəlxalq standartları, Azərbaycan Respublikasının qanunları, Respublika Prezidentinin fərmanları və sərəncamları, qanunvericiliklə bağlı normativ-hüquqi sənədlər təşkil edir.

**Tədqiqatın predmeti** Azərbaycanda investisiya-tikinti layihələrinin idarə edilməsinin iqtisadi mexanizminin nəzəri, metodoloji və praktiki məsələlərinin formalaşmasının məcmusudur.

**Tədqiqatın obyekti** Azərbaycanda investisiya-tikinti layihələrinin idarə edilməsidir.

**Tədqiqatın informasiya bazasını** Dövlət Statistika Komitəsinin, İqtisadi İnkişaf Nazirliyinin, Bakı Beynəlxalq Dəniz Limanının, sosial-iqtisadi sahədə müstəqil informasiya xidmətlərinin və ekspertlərin, tikinti şirkətlərinin və s. materialları təşkil edir.

İşin müxtəlif mərhələlərində həll edilən vəzifələrin xarakterindən asılı olaraq müqayisəli iqtisadi təhlil. statistik qruplaşdırma, iqtisadi statistik metodlardan istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- bazar iqtisadiyyatı şəraitində investisiya-tikinti layihələrinin idarə edilməsində səmərəliliyin müəyyən edilməsinin nəzəri aspektləri əsaslandırılmışdır;
- investisiya-tikinti layihələrinin kompleks təhlili aparılmış, idarə edilməsi və planlaşdırılmasının iqtisadi mexanizmi işlənilmişdir;
- investisiya-tikinti layihəsinin idarə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi üçün informasiya təminatı sisteminin təkmilləşdirilməsi istiqamətləri göstərilmişdir;
- investisiya-tikinti layihələrinin səmərəliliyini aşkar edən elementlər və qiymətləndirmə metodları müəyyən edilmişdir;
- risklərin idarə edilməsinin konseptual modeli təklif olunmuşdur;
- investisiya-tikinti layihələrinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi ilə bağlı nəzəri və praktiki təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın praktiki əhəmiyyəti.** İnvestisiya-tikinti layihələrinin idarə edilməsi, həmçinin onun Milli iqtisadiyyatın müxtəlif sahələri ilə qarşılıqlı əlaqəsi bu mövzunun gələcəkdə dərinləşdirilməsmində istifadə edilə bilər. İşin əldə olunmuş nəticə və təkliflərindən İqtisadi İnkişaf və Maliyyə nazirlikləri, Bakı Şəhər İcra Hakimiyyəti, tikinti şirkətləri, elmi-tədqiqat institutları istifadə edə bilərlər. İşin əsas müddəaları investisiya-tikinti layihələrinin işlənilməsində və reallaşdırılmasında metodiki və metodoloji yanaşmalar kimi istifadə edilə bilər. Tədqiqatın nəticələri Azərbaycan Texniki Universitetində tədris prosesində - «Sənayenin iqtisadiyyatı», «Menecment», «İnvestisiyaların qiymətləndirilməsi» və s. fənnlərin tədrisində istifadə edilir.

**İşin aprobasiyası.** Dissertasiyanın əsas müddəaları, irəli sürülmüş elmi nəticələr Azərbaycan Texniki Universitetində keçirilmiş elmi-praktiki konfranslarda, Beynalxalq elmi-praktik konfransda şərh edilmiş və AZTU-nun «Sənaye iqtisadiyyatı və menecment» kafedrasının seminarlarında müzakirə edilmişdir.

**Tədqiqat nəticəsində dərc edilmiş məqalələr**. Tədqiqat nəticəsində 8 məqalə və tezis dərc olunmuşdur. Bunların ümumi həcmi 2,0 çap vərəqi təşkil edir.

**Dissertasiya işinin quruluşu və həcmi**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş 100 adda ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi 151 səhifədən ibarətdir. Burada 29 cədvəl, 17 şəkil verilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı, öyrənilmə səviyyəsi, məqsəd və vəzifələri, nəzəri-metodoloji əsasları, tədqiqatın elmi yeniliyi, eləcə də praktiki əhəmiyyəti, şərh edilmişdir.

Dissertasiya işinin **I fəslində «İnvestisiya-tikinti layihələrinin idarə edilməsinin iqtisadi səmərəliyinin müəyyən edilməsinin nəzəri və metodoloji əsasları» araşdırılır.** Burada investisiya-tikinti layihələrinin idarə edilməsinin səmərəliliyinin müəyyən edilməsinin nəzəri aspektləri təhlil edilir, bu layihələrin idarə edilməsinin metodoloji əsasları və normativ-hüquqi təminatı göstərilir.

Qeyd olunur ki, investisiya-tikinti layihəsinin səmərəliliyi layihə iştirakçılarının məqsədlərinə və maraqlarına onun uyğunluğunu əks etdirən iqtisadi kateqoriyadır.

«İqtisadi səmərəlilik» kateqoriyası ilə «investisiya-tikinti layihəsinin idarə edilməsinin iqtisadi səmərəliliyinin müəyyən edilməsi» kateqoriyası eyni deyil. Bununla belə onlar arasında çox ümumilik vardır. «İnvestisiya-tikinti layihəsinin idarə edilməsinin iqtisadi səmərəliliyinin müəyyən edilməsi» kateqoriyası «investisiyanın iqtisadi qiymətləndirilməsini» tam əhatə edir və onun öyrənilməsi məntiqidir. İnvestisiyalarda səmərəliliyin hesablanmasını xərclərin və nəticələrin nisbəti kimi qəbul edirlər. Bu aydındır və vacibdir, ancaq investisiya qoyuluşu haqqında idarə etmə qərarının qəbul edilməsi üçün kifayət deyil, həm də aydın deyil ki, o investorların maraqları ilə harada və necə əlaqələndirilir. Bu məcbur edir ki, anlayış dövriyyəsinə «investisiya-tikinti layihəsinin idarə edilməsinin iqtisadi səmərəliliyinin müəyyən edilməsi» kateqoriyasını daxil edək.

İnvestisiya-tikinti layihəsinin idarə edilməsinin iqtisadi səmərəliliyinin müəyyən edilməsi investorların məqsəd və maraqlarının və layihədə göstərilən texniki, texnoloji, təşkilati, marketinq və digər həllərin uyğunluğunun aydınlaşdırılmasıdan ibarətdir. Gəlir normasının səviyyəsinin müəyyən edilməsi iqtisadi səmərəliliyin nəzəri və praktiki hesablamasında əsas məsələdir.

Tikinti layihəsinin texniki-iqtisadi əsaslandırılmasıda maliyyə-investisiya büdcəsi başlıca mövqe tutur, onun əsasında kapitala tələbat, maliyyələşdirmə strateqiyasının işlənilməsi, habelə layihə üzrə iqtisadi səmərəliliyin bütün növlərinin qiymətləndirilməsi müəyyən edilir.

İctimai səmərəlilik layihənin həyata keçirilməsinin sosial-iqtisadi nəticələrini cəmiyyət üçün bütövlükdə xarakterizə edir, yəni o təkcə layihənin nəticələrini və xərclərini yox, həm də layihəyə aid iqtisadiyyatın altsistemlərindəki «kənar» xərcləri və nəticələri də (ekoloji, sosial və digər səmərəni) nəzərdə tutur.

İctimai səmərəliliyi, ancaq sosial əhəmiyyətli investisiya-tikinti layihələri və bir neçə ölkənin mənafeyinə toxunan layihələr üçün (məs. Bakı-Tbilisi-Ceyhan və s.) qiymətləndirirlər. İdarəetmənin dövlət orqanları tərəfindən ekspertizası tələb olunmayan layihələr üçün ictimai səmərəlilik göstəriciləri tələb olunmur.

Ən əhəmiyyətlisi investisiya-tikinti layihəsində iştirak etmənin səmərəliliyinin müəyyən edilməsidir. Səmərəliliyin bu növünü həm də layihə üzrə xüsusi (səhmdar) kapital üçün səmərəlilik adlandırırlar.

İnvestisiya-tikinti layihəsində iştirak etmə səmərəliliyinə layihədə ən yüksək səviyyəli strukturun (maliyyə-sənaye qrupları, xoldinq strukturları) iştirak etməsi səmərəliliyini, investisiya-tikinti layihəsinin büdcə səmərəliliyini (bütün səviyyəli büdcələrin xərcləri və gəlirləri nöqteyi – nəzərdən layihədə dövlətin iştirakı səmərəliyi) aid edilir.

Səmərəliliyin göstərilən növlərinin qiymətləndirilməsi üçün müəyyən edilən göstəricilər sistemi və onların hesablanmasının metodoloji prinsipləri eynidir. Fərq ancaq ilkin parametrlərdə olur ki, burada səmərəliliyin hər bir növü üçün tətbiq edilən layihə üzrə real pul vəsaitləri axını formalaşdırılır. İctimai səmərəlilik göstəriciləri istisna təşkil edir. «Kənar» səmərəni dəyər ifadəsində nəzərə almaq həmişə mümkün olmur.

Dissertasiya işində nəzərə çatdırılır ki, investisiya layihələndirilməsinin idarə edilməsi – idarə etmə texnologiyasının və müasir metodlar sisteminin tətbiqi ilə layihənin həyat tsikli ərzində nəzarət və motivasiya, koordinasiya, təşkilati, planlaşdırma fəaliyyətidir. O investisiya layihəsi iştirakçılarını, işlərin həcminin keyfiyyətini, dəyərini və tərkibini bir sistemdə birləşdirir və bununla, investisiya layihəsində müəyyən edilmiş məsələlərin və proseslərin ən səmərəli reallaşdırmasının təmin edilməsi məqsədinə nail olunur.

Hər hansı investisiya-tikinti layihələrinin və proqramlarının idarə edilməsinə müəyyən səmərənin alınması üçün kapitalın cəlb edilməsi və istifadəsinin məqsədyönlü fəaliyyətinin toplusu kimi baxmaq olar. Səmərəliliyin iqtisadi və ya digər növlərinin (sosial, ekoloji və s.) layihələri fərqlənirlər.

İqtisadi səmərəlilik əldə etmək məqsədilə yaradılan investisiya-tikinti layihələri məhsulun realaşdırılmasından alınan mənfəətə və qoyulan kapitalın müəyyən həcmindən asılı olaraq rentabeliyin maksimum alınmasına yönəldilməlidir (kommersiya layihələri). İqtisadi səmərəliliyin alınması ilə əlaqədar olmayan investisiya-tikinti layihələri sosial sferada, ətraf mühitin mühafizəsində, ölkənin təhlükəsizliyinin təminində və s. dövlət məsələlərini həll etmək üçün maksimum istehlak dəyərinə və onun maksimum faydalılığına yönəldilməlidir. Üçüncü qrup investisiya-tikinti layihələri özündə birinci iki qrupun məqsədlərini birləşdirməlidir.

İnvestisiya-tikinti layihələrinin idarə edilməsi tam investisiya tsikli (həyat tsikli) dövrünü, onun mərhələlərini əhatə edir və öz tərkibinə görə müxtəlif əhəmiyyətli layihələr üçün eynidir.

İnvestisiya-tikinti layihəsinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi aşağıdaki əsas inteqral göstəricilərin - xalis diskontlaşdırılmış gəlir, gəlirlik indeksi, gəlirliyin daxili norması, ödəmə müddətinin istifadə edilməsinə əsasən həyata keçirilir.

Tədqiqat işində vurğulanır ki, investisiya-tikinti fəaliyyəti sahəsində qanunvericilik bazasının inkişafının prioritet istiqaməti normativ sənədlərin işlənilməsi və qəbul edilməsidir. Bu sənədlər bütövlükdə investisiya prosesinin tənzimlənməsi və normallaşdırılması məsələsinə cavab verməlidir. Belə sənədlərin qəbul edilməsilə dövlət istehsal proseslərinə və iqtisadi artımın sürətinə təsir edə bilər.

İnvestisiya-tikinti fəaliyyətinin normativ-hüquqi təminatı məsələlərinə kompleks yanaşmanın zəruriliyi investisiya prosesinin ayrılmazlığı və qarşılıqlı münasibətlərinin mürəkkəbliyindən irəli gəlir.

Azərbaycan Respublikasında investisiya-tikinti fəaliyyəti bir çox normativ-hüquqi və metodiki sənədlərlə qanuniləşdirilib. Bunlar dissertasiya işində aşağıdakı üç qrupa bölünmüşdür:

1. Ölkə, regional, sahə səviyyələrində, habelə müəssisələr səviyyəsində, xarici şirkətlər və investorlarla qarşılıqlı təsirdə investisiya-tikinti fəaliyyətinin idarə edilməsi üzrə əsas müddəaları müəyyənləşdirən normativ bazaya.

2. Qaydaları müəyyənləşdirən normativ bazaya:

3. İdarəetmənin konkret obyektlərinə tətbiq edilən ikinci qrup sənədlərin qaydalarını detallaşdıran və inkişaf etdirən normativ bazaya.

Hal-hazırda Azərbaycanda investisiya-tikinti fəaliyyətinin idarə edilməsi üzrə normativ baza kifayət qədər kompleks əlaqələndirilməmiş normativ sənədlərlə təqdim edilir. Bununla əlaqədar olaraq, aşağıdakıların yerinə yetirilməsi təmin edilməlidir: birincisi, onların kompleks olması; ikincisi, investisiya-tikinti kompleksinin müasir vəziyyəti və inkişaf meyilləri, habelə layihələrə xarici investisiyaların cəlb edilməsi üçün zəmanətin təmin edilməsi üzrə beynəlxalq tələblərin və standartların təkmilləşdirilməsi.

İnvestisiya-tikinti layihələrinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi metodu mahiyyətcə fərqlidir. O hazır məhsulun buraxılışı (xidmətlərin göstərilməsi) üçün istifadə edilən avadanlıqların, əsas fondların yaradılması üzrə xərclərin müxtəlif tərkibi, habelə alınan səmərə, daşınmaz əmlakın qiymətləndirilməsinin müxtəlifliyi, daşınmaz və daşınan əmlaka tələb ilə əlaqədardır.

İnvestisiya-tikinti layihələsinin əlverişliliyi və potensial investorların maraqları biznes-planın ətraflı işlənilməsinin zəruriliyini tələb edir. Onun tərkibi və məzmunu həm layihəqabağı, həm də sonrakı mərhələlər üçün nizama salınmalıdır. Layihəqabağı mərhələ üçün biznes-planda strateji sənəd kimi investisiya-tikinti layihəsinin perspektiv inkişafı müəyyən edilməlidir.

**Tədqiqatın II fəsli «Azərbaycanda investisiya-tikinti layihələrinin idarə edilməsi mexanizmlərinin təhlili»** adlanır. Bu fəsildə investisiya-tikinti layihələrinin idarə edilməsi və planlaşdırılmasının iqtisadi mexanizmi, investisiya-tikinti layihələrinin kompleks təhlilinin konseptual modelinin formalaşması mexanizmi, eləcə də investisiya resurslarının formalaşması mənbələrinin optimallaşdırılması təhlil edilmişdir.

Göstərilir ki, investisiya-tikinti layihəsinin idarə edilməsi sistemində mühüm yeri planlaşdırma tutur. Bu layihənin müxtəlif mərhələlərdə həyata keçirilməsinin bütün fazalarını əhatə edir və planlaşdırılan işlərin xüsusiyyətlərinə və onların yerinə yetirilməsinin mürəkkəbliyinə uyğun olaraq fərqlənir.

Layihənin reallaşdırılmasının bütün iştirakçılarının qarşılıqlı əlaqəsi, həmin mərhələdə işlərin spesifikasiyasını əks etdirən optimallığın seçilmiş meyarlarına əsaslanır və onun idarə edilməsi səviyyəsini ümumi şəkildə müəyyən edən planların növləri konseptual, strateji, taktiki (cari) və operativdir.

Göstərilən planların tərtib edilməsi həmişə işlərin əmək tutumunun, material tutumunun, müddətinin qabaqcadan hesablanmasını tələb edir və işlərin yerinə yetirilməsi texnologiyasını müəyyən edir. Bunların hər birinə dəqiq informasiyaların verilməsi zəruridir. İnformasiyaların istifadə edilməsi düzgün qərarın qəbul edilməsinə imkan yarada bilər.

İnvestisiya xərclərinin həcminin müəyyən edilməsi ilə əlaqədar bütün hesablama məlumatlarının yekun göstəriciləri Bakı şəhərinin Ələt ərazisində

nəzərdə tutulan yeni Bakı Beynəlxalq Dəniz Limanının tikinti layihəsi timsalında verilir və hər bir məlumat ətraflı hesablamalarla, smeta xərcləri ilə əsaslandırılır.

Burada əldə edilmiş iqtisadi dəyər və səmərəlilik təhlili qaydaları tətbiq edilir. İnvestisiya layihəsinin gəlirliyini təhlil edərək, gələcək iki alternativ vəziyyəti - tikinti şirkətinin öz layihəsini həyata keçirməsi və keçirməməsini müqayisə etmək lazımdır. Belə qaydanı çox hallarda «layihə ilə və layihəsiz» adlandırırlar.

Layihənin şəklinin dəyişilməsi forması aşağıdakı kimi verilir:




**Şəkil 1. «Layihə ilə və layihəsiz» metodu**:

a – layihənin reallaşdırılmasından alınacaq gəlirlərin artımı və ondan imtina edildikdə onların dəyişilməməsi;

b – layihədən imtina etdikdə gəlirlərin aşağı düşməsi; (layihəsiz variant)

G – xalis gəlir;

T – illər.

Şəkildən göründüyü kimi, A bölməsinin sahəsi B bölməsinin sahəsindən artıqdır (a), yəni şirkətin xalis gəliri G layihənin yerinə yetirilməsi variantında, layihəsiz varianta görə nisbətən yüksəkdir, ancaq elə ola bilir ki, layihə reallaşdırılmayanda şirkətin xalis gəliri aşağı düşür (b).

Yeni Bakı Beynəlxalq Dəniz Limanının timsalında iqtisadi dəyər və səmərəlilik təhlili «Layihə ilə və layihəsiz» hallarında mənfəəti müqayisə etməyə imkan verir. Limanın investisiya-tikinti layihəsi avtomobil və dəmir yolunda,

limanlarda, dəniz əlaqələrində və borularda nəqliyyat şəraitinin yaxşılaşdırılması ilə, TRASECA dəhlizinin inkişaf etdirilməsi şəraitində həyata keçiriləcəkdir. Nəticə etibarı ilə Azərbaycanın regionda əsas nəqliyyat mərkəzi kimi mövqeyi möhkəmlənəcək, geosiyasi şərait Xəzər dənizi regionunda ticarət və nəqliyyatının gücləndirilməsinə əlverişli şərait yaradacaq və digər cari investisiya-tikinti layihələri həyata keçiriləcəkdir.

Yeni limanın investisiya-tikinti layihəsinin yerinə yetirilməsinin təqvim planlarının formalaşması üçün bir neçə metoddan istifadə edildiyi göstərilir. Müasir texnologiya işlərin bir çox növünün ardıcıl yox, paralel həyata keçirilməsinə imkan yaradır, yəni işlərin müəyyən ardıcıllığa riayət edilməsi zəruriliyini ləğv edir.

Bakı limanının layihəsinin 3 mərhələsinin ümumi sərmayə dəyəri 629,1 milyon ABŞ dolları təşkil edir. Aşağıdakı cədvəld ə hər mərhələdə qoyulacaq sərmayənin miqdarı, həmçinin illər üzrə sərmayələrin paylanması göstərilmişdir.

**Cədvəl 1**

**Yeni Bakı Beynəlxalq Dəniz Limanına 3 mərhələ üzrə qoyulacaq sərmayə və onun illər üzrə bölünməsi (milyon ABŞ dolları).**

| Mərhələ | Dəyəri | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 2008 | 2009 | 2010 | … | 2018 | 2019 | … | 2028 | 2029 |
| 1 | 362,6 | 111,6 | 127,1 | 123,9 | | | | | | |
| 2 | 133,1 | | | | | 33,2 | 99,9 | | | |
| 3 | 133,4 | | | | | | | | 32,2 | 101,2 |
| Cəmi | 629,1 | 111,6 | 127,1 | 123,9 | | 33,2 | 99,9 | | 32,2 | 101,2 |

Mənbə: Yeni Bakı Beynəlxalq Dəniz Limanının layihə materialları

Qalıq dəyəri layihənin tamamlanacağı dövrün (2040) sonunda nəzərdə tutulub. Onun ilkin sərmayəsinin 25%-i, yəni 157 milyon ABŞ dolları təşkil edəcəyi proqnozlaşdırılır. O, layihə dövrünün sonunda gəlir kimi əlavə ediləcəkdir. Həyata keçirilən liman xidmətləri qarşılığında əldə edilən gəlirlərin hesabına ödənilən əməliyyat xərcləri «layihə ilə və layihəsiz» hallarda o qədər də fərqlənmir və bu səbəbdən təhlildən kənarda qalır.

Yeni limanın yerləşdiyi yer TRASECA dəhlizi boyunca tranzit nəqliyyatı üçün çox əlverişlidir, belə ki, o, Gürcüstan və daha uzağa aparan avtomobil və dəniz yolu qovşaqlarının Xəzər dənizinə yaxınlaşdığı yerdə yerləşir. Deməli,

TRASECA dəhlizi boyunca tranzit nəqliyyat artıq Bakıdan Ələtə qədər olan 60 km məsafəni qət etmək məcburiyyətində olmayacaqdır. Digər tərəfdən isə, Bakıya aparılan saxlanılmış yük əlavə 60 km keçməli olacaqdır. Buna baxmayaraq, tranzit axının saxlanılmış axından daha çox olduğu üçün bərabərliyin nəticəsi müsbət olacaqdır.

Yeni limanda aparılan əməliyyatlardan gələn azad kapital axınına dövlət investisiyasının qaytarılması kimi baxıla bilər.

Azərbaycanın iqtisadiyyatının yeni liman layihəsindən əldə edəcəyi gəlir Bakı şəhərinin gələcək inkişafında müşahidə ediləcəkdir.

Nəhayət, Ələt ərazisində limanların inkişafı yerli məşğulluq və regional iqtisadi artıma səbəb olacaqdır. Bakının yeni limanı və TRASECA arasında inteqrasiya Azərbaycanda infrastrukturun inkişafını gücləndirəcəkdir. Bundan başqa, yeni limanın layihəsi yeni istehsal qurğularının, özəl təsərüfatların və nəqliyyat biznesinin regiona cəlb imkanlarını artıracaqdır.

Bu fəsildə tikinti şirkətinin fəaliyyətinin kompleks təhlili sisteminin formalaşmasının əsas problemləri göstərilir. Qeyd olunur ki, tikinti şirkətində kompleks təhlilin qurulması sisteminin prinsiplərindən biri təşkilati reallaşdırma, idarəetmənin bütün strukturu ilə əlaqənin təmin edilməsi, analitik «dilin» işlənilməsi, daxili sistemin maksimum formalaşmasıdır.

Burada «Gilan-inşaat» şirkətinin fəaliyyət növlərinin nəticəsinin iqtisadi təhlili üçün tövsiyə edilən göstəricilər, həmçinin idarəetmənin ayrıca yarım sisteminin funksional analitik göstəricilərinin iqtisadi təhlili verilmişdir.

Nəzərə çatdırılmışdır ki, kompleks təhlilin konseptual modelinin formalaşmasına mühüm yanaşmalardan biri tikinti şirkətinin idarə edilməsinin inteqrasiya sisteminin modellərindən biri ilə, o cümlədən keyfiyyətin idarə edilməsinin kompleks sistemi ilə maksimum əlaqənin təmin edilməsidir. Təhlilə belə yanaşma nəinki «qüsurları» aşkar etməyə, həm də sistemi operativ düzəltməyə, biznesin taktikasını və strategiyasını dəyişməyə imkan verir.

İdarəetmə sisteminin kompleks təhlilini müəyyənləşdirərkən konkret şirkətin hansı həyat tsikli mərhələsində olması göstərilməlidir. Müasir iqtisadi

təhlil təşkilati-iqtisadi sistemin qeyri-xətti dinamikasını nəzərə almalıdır. Qeyri-xəttilik davranışın müxtəlifliyini, funksiyaların vahid olmamasını, nizamsız trayektoriyanın mövcudluğunu nəzərdə tutur.

Tikinti şirkətinin idarə edilməsi sisteminin kəmiyyətcə təhlili təşkilati-idarəetmə təhlilinin metodikasına əsasən aparılıb və cədvəl 3-də verilən göstəriciləri özünə daxil edir.

**Cədvəl 2**

**Tikinti şirkətinin təşkilati strukturunun kəmiyyətcə qiymətləndirilməsi**.

| **Göstərı-cilər** | **Düstur** | **Əhəmiyyəti** | **Vəziy-yət** |
|---|---|---|---|
| Gərgin struktur əmsalı | $\partial_{gs} = \frac{\dot{I}}{b}$, burada, $\dot{I}$ –ümumi sayda idarə aparatı işçilərinin xüsusi çəkisi, %; $b$ – bölmələrin ümumi sayı | 0,96 | normal vəziyyət |
| Vəzifəyə uyğun əmsal | $\partial_{vu} = \frac{S_u}{S_{ia}}$, burada, $S_u$ - vəzifəyə uyğun, idarənin işçilərinin sayı (təhsil və ya attestasiya yekunu üzrə); $S_{ia}$ - idarə aparatı işçilərinin sayı | 0,4 | qeyri-kafi |
| İdarənin mərkəzləş dirilməsi əmsalı | $\partial_{im} = \frac{\dot{I}_{mi}}{\dot{I}_{is}}$, burada, $\dot{I}_{mi}$ - mərkəzi idarə işçilərinin miqdarı; $\dot{I}_{is}$ - idarə işçilərinin ümumi miqdarı | 0,25 | normal vəziyyət |

Bu fəsildə nəzərə çatdırılır ki, maliyyələşdirmə üçün cəlb edilən resursların mənbələrinin strukturunun optimalaşdırılması maliyyələşdirilmənin qarışıq formasının istifadə edilməsi probleminin əsasıdır. O həm ayrıca götürülmüş layihənin işlənilməsi kimi, həm də investisiya proqramının əsaslandırılmasında meydana çıxır.

Müxtəlif mənbələrdən olan maliyyələşdirmənin nisbətinin müəyyən edilməsi yolunun birinci addımı onların hər birinin dəyərinin müəyyənləşdirilməsidir. Hesablamalar perspektivdə tikinti şirkətinin inkişafını əks etdirən informasi-

yalara əsaslanmalıdır ki, cəlb edilən kapitalın gələcək dəyərini müəyyən etmək mümkün olsun. Keçmiş dəyər yeni maliyyələşdirmənin dəyərinə təsir etməsin.

Tikinti şirkətinin kapitalının ayrıca komponentlərinin dəyərinin müəyyən edilməsi fond bazarının konsepsiyasına əsaslanır. Belə yanaşma investisiya resurslarının dəyərinin müqayisə edilən növünün qiymətləndirilməsinə imkan verir.

Maliyyələşdirmə mənbələrinin strukturunun əsaslandırılması tikinti şirkətinin kapitalının təhlili və səhmdarların maraqlarına və gələcək gəlirlərinə təsiri ilə əlaqədardır. Əgər maliyyələşdirmə mənbəyi kimi krediti digər xüsusiyyətlərindən ayırsaq, spesifiki dəyərindən başqa, o səhm kapitalına nisbətən böyük üstünlüyə malikdir. Ancaq əgər tikinti şirkətinin böyük məbləğdə borcu varsa, onda o yeni borcu da ödəmək qabiliyyətinə malik olmayacaqdır. Bundan başqa, borc artdıqca tikinti şirkəti üçün risk yüksəlir və müəyyən vəziyyətdə müflişləsməyə gətirib çıxarır.

Maliyyə vəsaitlərinin səmərəsi o vaxt əldə edilə bilər ki, özünün və borc vəsaitlərinin nisbəti borcun xeyrinə dəyişir və bütün investisiyalaşdırılan kapitalın mənfəət norması borc vəsaitlərinin bütün mənbələri üzrə kreditin orta səviyyəsindən artıq olur.

İnvestisiya-tikinti layihəsinin maliyyə təhlili tikinti şirkətinin fəaliyyəti ilə qarşılıqlı əlaqədə olan layihə həyatının bütün müddətində onun səmərəliliyinin qiymətləndirilməsi metodlarının və üsullarının məcmusudur.

Layihə ilə tikinti şirkəti arasındakı əlaqə o deməkdir ki, hər bir investisiya-tikinti layihəsinin həyata keçirilməsinin təşkilat forması şirkətdir. Ona görə də, maliyyə təhlili aparılanda sxemə həm layihə, həm də tikinti şirkəti daxil edilir (Şəkil 2).

İnvestisiya - tikinti layihələrinin maliyyə təhlilinin metodlarının və üsullarının mürəkkəbliyi ondan ibarətdir ki, real aktivlərə investisiyanın qiymətləndirilməsi ikili xarakter daşıyır:

Maliyyə planı təsərrüfat sahələrinin qarşılıqlı əlaqələrində əsas rol oynayır. Aylıq, rüblük, illik və daha böyük müddətə tərtib edilən maliyyə planında şirkətin gəlirləri; xərcləri; vergiləri; bank ödəmələri; mülkiyyətçilə əldə etdiyi gəlirlər və s. əks olunur. Biznes maliyyəsinin subyektləri çoxsaylı olduğu üçün maliyyə münasibətlərinin istiqamətləri də müxtəlifdir.




**Şəkil 2. İnvestisiya - tikinti layihəsinin maliyyə təhlili.**

**Dissertasiya işinin III fəslində Azərbaycanda investisiya-tikinti layihələrinin idarə edilməsinin iqtisadi mexanizminin formalaşmasının əsas istiqamətləri tədqiq olunur.** Bununla bağlı investisiya-tikinti layihəsinin idarə edilməsi səmərəliliyinin qiymətləndirilməsi üçün informasiya təminatı sisteminin təkmilləşdirilməsi istiqamətləri göstərilmiş, investisiya-tikinti layihələrinin elementləri və səmərəliliyi proqnozlaşdırılmış, investisiya-tikinti şirkətlərinin fəaliyyətində risklərin idarə edilməsinin iqtisadi mexanizmi tədqiq edilmişdir.

Müəllif səmərəliliyin iki növə ayrılmasına və onların göstəricilərinin uyğun olmasına əsasən layihənin qiymətləndirilməsinin iki mərhələdə aparılmasını tövsiyə edir. Təklif edilən investisiya-tikinti layihəsinin idarə edilməsinin qiymətləndirilməsi mexanizmi şəkil 3-də göstərilir.

Birinci mərhələnin vəzifəsi bütövlükdə investisiya-tikinti layihəsinin səmərəliliyini müəyyən etməkdir, o xüsusi mənbələrin hesabına maliyyələşdirilməlidir, yəni kreditlər cəlb edilməməklə.




**Şəkil 3. İnvestisiya-tikinti layihəsinin idarə edilməsinin qiymətləndirilməsinin konseptual sxemi**

Əgər investisiya-tikinti layihəsi ictimai əhəmiyyətli qəbul edilirsə, onda qiymətləndirmə üsulları ardıcıl yerinə yetirilir. İctimai əhəmiyyətli layihələr üçün birinci növbədə onların ictimai səmərəliliyi qiymətləndirilir.

İnvestisiya-tikinti layihəsi bütövlükdə səmərəlilik göstəriciləri kifayət qədər əlverişli olduqda, qiymətləndirmə birinci mərhələdən ikinci mərhələyə keçirilir.

Qiymətləndirmənin ikinci mərhələsi maliyyələşdirmə sxeminin mümkün variantlarının baxılmasından və onunla əlaqədar xərclərin, mənfəətin bölüşdürülməsindən və s. sonra həyata keçirilir. Bu mərhələdə maliyyənin reallaşdırılması və investorların dövlətin investisiya-tikinti layihəsində iştirakının səmərəliliyi müəyyən edilir.

Tikinti sferası fəaliyyətinin təkmilləşdirilməsinin istiqamətlərindən biri investisiya-tikinti layihəsinin informasiya təminatı sisteminin tətbiq edilməsidir.

İnvestisiya-tikinti layihəsinin məqsədi və işlərin həcmi struktur formasında diqqətlə tərtib edilmiş informasiya modeli və ya layihənin idarə edilməsinin informasiya sistemi kimi təqdim edilə bilər.

İnvestisiya-tikinti layihələrinin göstəricilərini müəyyən etmək üçün birləşmiş iqtisadi informasiyaları nəzərə almaq lazımdır. İnvestisiya-tikinti layihəsi planının formalaşması üçün aşağıdakı informasiyaların olması zəruridir:

- mərhələlər üzrə işlərin həcmi və strukturu;
- tələb olunan material, texniki əmək və maliyyə resursları;
- ayrıca növ işlərin və bütün növ layihənin ilk və son müddətləri;
- işlərin istehsalının seçilmiş təşkilinə uyğun tələb olunan resursların istifadəsinin səmərəliliyini xarakterizə edən əsas texniki-iqtisadi göstəricilər.

Konseptual, strateji, cari və ya operativ planların işlənilməsinə müxtəlif səviyyəli investisiya-tikinti layihəsinin idarə edilməsi cəlb edilə bilər. Bunların hər birinə dəqiq informasiyaların verilməsi zəruridir. İnformasiyaların istifadə edilməsi düzgün qərarın qəbul edilməsinə imkan yarada bilər.

Tikintinin cari və perspektiv inkişafı ilə əlaqədar vəziyyəti qiymətləndirmək üçün çoxtərəfli və keyfiyyətli informasiyaların əlverişliyi ilə hakimiyyət orqanları, tikintidə işləyənlər, kommersiya sektoru və «üçüncü şəxs» və s. maraqlıdırlar.

Bununla bağlı nəzərə çatdırılır ki, hər hansı bir investisiya-tikinti layihəsinin əlverişliyi haqqında mülahizə yürütmək üçün dörd elementi müəyyənləşdirmək lazımdır:

- xərclərin həcmini – investisiyaları (investment);

- təsərrüfat fəaliyyətindən pul daxilolmaları növündə potensial gəlirləri (operating cash flows);

- investisiyaların həyatının iqtisadi müddətini; yəni gəlir gətirəcək investisiyalaşdırılmış layihə ərzində vaxt dövrünü (ekonomic life);

- iqtisadi həyat tsikli dövrünün axırında hər hansı bir kapitalın azad edilməsini – ləğv edilmə dəyərini (vecovery value).

Bu dörd elementin iqtisadi təhlili investisiya-tikinti layihəsinin qiymətləndirilməsinə imkan yaradır.

Bir neçə ildən sonrakı investisiyaların dəyərini təyin etmək üçün, mürəkkəb faizlərin düsturundan istifadə edilir:

$$FV = PV \times (1 + r)^n \tag{1}$$

Burada,

$FV$ - $n$ illərindən sonra investisiyanın gələcək dəyəri;

$PV$ - investisiyanın illik məbləği;

$r$ - onda bir (0,1) növündə faizlərin dəyəri;

$n$ – hesablama dövründə illərin sayı.

Əgər investisiyanı ildə bir neçə dəfə hesablayırlarsa, onda əmanətin gələcək dəyərini hesablamaq üçün düstur aşağıdakı formada olar:

$$FV = PV \times (1 + r \div m)^{nm} \tag{2}$$

Burada, $m$ – ildə faizlərin hesablanması dövrlərinin sayıdır.

Xalis cari dəyər metodu aşağıdakından ibarətdir.

1. Xərclərin cari dəyəri müəyyənləşdirilir ($İ_o$), yəni layihə üçün nə qədər investisiya lazım olması məsələsi həll edilir.

2. Layihədən gələcək pul daxil olmalarının cari dəyəri hesablanır, onun üçün hər il gəlirlər (CF) cari tarixə gətirilir.

Bütün illər üzrə gəlirlərin cari dəyərini yekunlaşdırıb layihənin gəlirlərinin ümumi dəyərini alırıq (PV):

$$PV = \sum_{n=1} \frac{CF_n}{(1+r)^n} \qquad (3)$$

3. İnvestisiya xərclərinin cari dəyəri ($İ_o$) gəlirlərin cari dəyəri (PV) ilə müqayisə edilir. Onların arasındakı fərq gəlirlərin xalis cari dəyərini təşkil edir (NPV):

$$NVP = PV - I_o = \sum_{n=1} \frac{CF_n}{(1+r)^n} - I_o \qquad (4)$$

NPV layihəyə yerləşdirilən investorun xalis gəlirlərin və ya xalis itgilərinin bankda saxlanılan pullarla müqayisəsini göstərir. Əgər NPV>0, o deməkdir ki, layihə çox gəlir gətirəcəkdir. Əgər NPV<0, onda layihənin gəlirliyi bazar qiymətindən aşağıdır, ona görədə pulları bankda saxlamaq lazımdır. Layihə nə mənfəətli və nə də itgisizdir, onda NPV=0.

Tədqiqat işində risk şəraitində səmərəli qərarların hazırlanması texnologiyasının həmin investisiya-tikinti şirkəti üçün iqtisadi əsaslandırılmış tövsiyələrin və tədbirlərin reallaşdırılması ilə ayrılmaz surətdə əlaqəli olduğu bildirilir. Burada riskin idarə edilməsi mexanizminə nəzərdə tutulmuş iqtisadi səmərəliliyə nail olmaq üçün yönəldilən qərarların eyni qəbul edilməsi, investisiya-tikinti proqramlarının, xidmətlərinin reallaşdırılması, tikintinin fəaliyyət rejimlərinin dəyişilməsi nəticəsində aşkar edilən və proqnozlaşdırılan üsulların, qarşılıqlı əlaqəli elementlərin cəmi kimi baxılır.

Riskin idarə edilməsinin məzmunu qoyulan məqsədə nail olmaq üçün prinsiplər, metodlar və alətlər sistemində açıqlanır. Bu cür yanaşma risk şəraitində resursların minimum itgisi ilə fəaliyyət göstərən və özü inkişaf edən tikinti sisteminin yaradılmasına imkan verir.

Riskin idarə edilməsinin konkret modelinin seçilməsinin əsas meyarı qoyulan məqsədlərə nail olmaq üçün onun səmərəliliyidir, yəni tikinti fəaliyyətinin həyata keçirilməsi prosesində mümkün itginin minimuma endirilməsidir.

Riski proqnozlaşdırmaq olar, bu isə onun aşağı salınmasının təmin edilməsinə, ayrıca tədbirlərin işlənilməsinə imkan verir. Belə tədbirlərin səmərəliliyi risklərin qiymətləndirilməsinin düzgünlüyündən çox asılıdır və investisiya-tikinti layihəsinin reallaşdırılmasının nəticəsinə təsir edir, ən çox itgi vermək qabiliyyətinə malik olanların aşkar edilməsi mümkün olur.

İnvestisiya-tikinti şirkətlərinin risklərinin idarə edilməsində dəyər yanaşmasını istifadə etmək məqsədyönlüdür, onun üçün kadr və informasiya təminatını, riskə təsir edən metodların məcmusunu, struktur həllərini və strategiyanı daxil etməklə, risklərin idarə edilməsi sisteminin işlənilməsi və tətbiqi lazımdır.

İnvestisiya-tikinti şirkətinin təhlükəsizliyinin təsviri və risklərin təsnifatı – şirkətlərin risklərinin idarə edilməsi sisteminin əsas funksional məsələlərindən biridir. Tikinti istehsalın səmərəliliyini (nəticəsini) xarakterizə edən ən əsas amillərdən biri üzrə tikinti istehsalı riskin qiymətləndirilməsinə təklif edilən yanaşma, təkcə risk amili nəzərə alınmaqla podrat müqaviləsinin yerinə yetirilməsi nəticəsinin təhlilinin yerinə yetirilməsinə deyil, həm də onun təsiri dərəcəsini aşağı salmaq üçün tədbirlər hazırlanmasına, beləliklə, istehsal və iqtisadi itgilərin aşağı salınmasına və mənfəətin yüksəlməsinə imkan verir.

Aparılan tədqiqatın bütün gedişi və riskin idarə edilməsi modelinin istifadəsi göstərir ki, bu yanaşma risk şəraitində qəbul edilən qərarların səmərəliliyini və obyektiv dəyər qiymətləndirilməsini təmin edir.

**Yerinə yetirilmiş elmi-tədqiqat aşağıdakı bir sıra nəticə və təklifləri irəli sürməyə imkan verir:**

1. İnvestisiya-tikinti layihəsinin idarə edilməsinin iqtisadi səmərəliliyinin müəyyən edilməsi iki qrup məsələnin həllindən - investorların məqsəd və maraqlarının və layihədə göstərilən texniki, texnoloji, təşkilati, marketinq və digər həllərin uyğunluğunun aydınlaşdırılmasından ibarətdir.

2. İnvestisiya-tikinti layihəsinin real pul axınlarının formalaşmasında bəzi metodoloji prinsiplərə riayət edilməsi zəruridir. Birincisi, pul axınları investisiya prosesi iştirakçılarının iqtisadi maraqlarını eyni əks etdirməlidir. İkincisi,

hesablama dövrünün addımları üzrə pul axınının hər maddəsinin hesablama metodu qanunvericilik aktlarında, habelə yeni layihələşdirilən obyekt üçün qəbul edilən uçot siyasətində möhkəmləndirilməli və milli iqtisadiyyatın mövcud təsərrüfat mexanizminin tələblərini əks etdirilməlidir. Üçüncüsü, hesablamanın seçilmiş addımı müddətində pul axının hər bir elementi üç imkan fəaliyyətindən birinə, əmələ gəlmə vaxtından asılı olaraq addımın əvvəlinə, addımın sonuna və ya pul axınlarının, xərclərin müntəzəmliyinə aid edilməlidir.

3. İnvestisiya-tikinti layihəsinin məhdud və bitmiş kompleks tədbirlər sistemi kimi mövcudluğu ilə yanaşı, tədbirlərin, işlərin və sənədlərin yerinə yetirilməsi nəticəsində müəyyən səmərə əldə edilir. Onun məntiqi məzmunu ayrıca bütöv müstəqil sənədin – investisiya-tikinti layihəsinin həyata keçirilməsinin təşkili layihəsinin formalaşması ilə nəticələnir.

4. İnvestisiya-tikinti layihələrinin layihəqabağı əsaslandırılmasının normativ-metodiki təminatına xüsusi diqqət yetirilməlidir. Ona görə də ən mühüm məqsədlərdən biri investisiya-tikinti layihələrinin səmərəliliyinin müəyyən perspektivdə əmtəələr və xidmətlər bazarında məhsulun yaradılmasının rəqabət qabiliyyətliliyinin hesablama mexanizminin müəyyənləşdirilməsidir. Belə məhsula tələbin dinamikası dəqiq marketinqə, rəqiblərin təhlilinə, yaradılan məhsulun maya dəyərinin qiymətləndirilməsinə, investisiya-tikinti layihəsinin tipindən asılı olaraq xərclərin və səmərəliliyin müxtəlif növlərinin qiymətləndirilməsinə əsasən proqnozlaşdırılmalıdır.

5. Yeni Bakı Beynəlxalq Dəniz Limanının tikintisinin maliyyə əsaslandırılmasının təhlil edilməsi üçün yaradılmış maliyyə modeli aşağıdakı formada qurulmuşdur: sərmayə, hesablama və nəticə. Bakının yeni limanı və TRACECA arasında inteqrasiya ölkəmizin infrastrukturunun inkişafını gücləndirəcəkdir.

6. İnvestisiya-tikinti layihəsini tam təsvir etmək məqsədilə onun səmərəliyinin proqnoz hesablarını müvafiq mühasibat sənədlərinə əlavə etmək lazımdır. Proqnoz sənədlərinə əsasən maliyyə əsaslarının məcmusunu hesablamaq mümkündür. Layihə səmərəliliyinin maliyyə qiymətləndirilməsinə belə yanaşmanın zəruriliyi onunla izah edilir ki, potensial investorların açıq maliyyə hesabatı-

na əsaslanan göstəricilərə ehtiyacları vardır. Bu hesablamaların başlıca cəhəti onların perspektivliyi, gələcəyə istiqamətləndirilməsi, proqnozlaşdırılmasıdır.

7. İnteqrasiya edilmiş iqtisadi informasiyaların mahiyyəti istehsal obyektinin yaradılması layihəsinin iqtisadi hissəsi üzrə texniki-iqtisadi informasiyaların və xarici informasiyaların müəyyən metodika üzrə aparılmasıdır, yəni investisiya xərclərinin gəlirinin, cari gəlirlərin, mənfəətin və s. nəzərə alınmasıdır. Belə informasiyalar pul vəsaitləri axınının formalaşmasına imkan yaradar, sonra isə layihənin səmərəliliyinin qiymətləndirilməsini asanlaşdırar.

8. Alternativ layihələri qiymətləndirəndə diskontlaşdırılmış gəlirin yüksək səviyyəsi əldə edilən layihəyə üstünlük verilməlidir. Müstəqil layihələrin seçilməsində investisiyanın ən faydalı bölüşdürülməsi üçün üstünlük gəlirin daxili norması kəmiyyətinin alınmasına verilməlidir.

9. İnvestisiya-tikinti şirkətinin risklərinin idarə edilməsinin konseptual modeli risklərin idarə edilməsinin mövcud mexanizmlərinin istifadə edilməsinə əsasən arzu edilməyən iqtisadi itkinin əmələ gəlməsinin qarşısının alınmasını minimuma endirməyə imkan yaradır.

10. İnvestisiya-tikinti şirkətlərinin risklərinin idarə edilməsində dəyər yanaşmasını istifadə etmək məqsədyönlüdür, onun üçün kadr və informasiya təminatını, riskə təsir edən metodların toplusunu, struktur həlləri, strategiyanı daxil etməklə, risklərin idarə edilməsi sisteminin işlənilməsi və tətbiqi lazımdır.

**Dissertasiya işinin əsas məzmunu müəllifin dərc olunmuş aşağdakı məqalə və tezislərində öz əksini tapmışdır:**

1. «İnvestisiya-tikinti layihələrinin səmərəliliyinin müəyyən edilməsinin nəzəri və metodoloji aspektləri», AzTU-nun Elmi Əsərləri, Bakı, 2008, № 3,s.74-77
2. «İnvestisiya-tikinti layihələrinin idarə edilməsinin metodoloji əsasları». İqtisadiyyat və həyat jurnalı, 2009, № 2., s.21-24
3. «İnvestisiya-tikinti layihələrinin kompleks təhlilinin konseptual modelinin formalaşması mexanizmi» AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2009, № 2., s.203-208
4. «Формирование конкурентной модели комплексного анализа строительной

компании» Международной научной журнал. Москва, 2009, № 2, s.44-48

5. «İnvestisiya-tikinti layihələrinin pul axınları və səmərəlilik növləri» AzTU-nun elmi konfransı, Bakı, 2009., s.210-211
6. «Azərbaycanda investisiya-tikinti layihələrinin səmərəli idarə edilməsinin iqtisadi mexanizminin formalaşması». Azərbaycanda keçid dövrünün başa çatması: Təhlili və nəticələr. Respublika Elmi-praktiki konfransı. Bakı, 2010. (X. Əliyeva ilə müştərək) s.305-306
7. «İnvestisiya-tikinti layihələrinin idarə edilməsinin ictimai və sosial səmərəliliyi». Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi. Elmi əsərlər toplusu. 2012, № 1 (9). s.114-118
8. Оценка и анализ экономической проектов в современных условиях. Журнал Вестник экономической интеграции. Москва, 2012, № 5, с.65-68

**Асиф Габиб оглы Гусейнов**

**Формирование экономического механизма управления инвестиционно-строительными проектами в Азербайджане**

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

В введении обосновывается актуальность темы, уровень ее изучения, определяются цели и задачи исследования, дается информация о научной новизне, ее теоритической и практической значимости.

В первой главе рассматривается «Теоретические и методологические особенности определения экономической эффективности в управлении инвестиционно-строительными проектами». Здесь анализируется теоретические аспекты определения экономической эффективности для управления инвестиционно-строительными проектами, указывается нормативно-методическое обеспечение и методологические особенности управления этими проектами.

Вторая глава исследования называется «Анализ механизмов управления инвестиционно-строительными проектами в Азербайджане». В этой главе анализируются экономические механизмы планирования и управления инвестиционно-строительными проектами; механизм формирования концептуальной модели для комплексного анализа инвестиционно-строительных проектов; анализируется оптимизация источников формирования инвестиционных ресурсов.

В третьей главе исследуются основные направления формирования экономических механизмов управления инвестиционно-строительными проектами в Азербайджане. В этой связи, дается совершенствование системы информационного обеспечения для оценивания эффективности управления инвестиционно-строительными проектами; прогнозируется эффективность и элементы инвестиционно-строительных проектов; указывается экономические механизмы управления рисками деятельности инвестиционно-строительных компаний.

В заключении обобщаются основные положения и выводы исследования.

**Asif Habib oglu Huseynov**

**Formation of the economic mechanism for management of investment and construction projects in Azerbaijan**

## SUMMARY


The dissertation consists of introduction, three chapters, conclusion and the list of bibliography.

In the introduction part of the dissertation the actuality of the theme is based, its aim and duty is determined, some information about its scientific innovation, theoretical and practical importance is given.

In the first chapter "The theoretical and methodological features of determination of economic efficiency for management of investment and construction projects" are considered. Here the theoretical aspects of determination of economic efficiency for management of investment and construction projects are analyzed; methodological features of management of these projects are specified.

The second chapter of research is called "Development and the analysis of mechanisms for management of investment and construction projects in Azerbaijan". In this chapter development and the analysis of economic mechanisms for planning and management of investment and construction projects is specified; formation the mechanism of formation of conceptual model for the complex analysis of the investment and construction; optimization of sources of formation of investment resources is analyzed.

In chapter three it is investigated the main directions of formation of economic mechanisms for management of investment and construction projects in Azerbaijan. In this regard, development of information for estimation of management efficiency of investment and construction projects are explained; efficiency and elements of investment and construction projects is predicted; it is specified economic mechanisms of risk management of activity of investment construction companies.

In the conclusion the results gained from investigation and offers are generalized.

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ЭКОНОМИКИ

*На правах рукописи*

**АСИФ ГАБИБ оглы ГУСЕЙНОВ**

# ФОРМИРОВАНИЕ ЭКОНОМИЧЕСКОГО МЕХАНИЗМА УПРАВЛЕНИЯ ИНВЕСТИЦИОННО-СТРОИТЕЛЬНЫМИ ПРОЕКТАМИ В АЗЕРБАЙДЖАНЕ

**Специальность: 5312.01 - Отраслевая экономика**

## А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание научной степени доктора философии по экономике

**БАКУ – 2013**

Çapa imzalanıb 11.09.2013-cü il
Сайы 100. Форматы 60x84 $^{1}/_{16}$.
Əla növ kağız.

***АзТУ-нун мятбяяси. Щ.Ъавид пр.25.***
***Тел: (+012) 539-14-52***
***Е.маил: азтуметбее@yahoo.com***